Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# YUBILYAR KITABLAR

## yaddaş

Bakı- 2015

Tərtibçi: **Nərgiz Məcidova**

Redaktor və
buraxılışa məsul: **Şəhla Qəmbərova**

**Yubilyar kitablar:** 2015-ci il üçün yubilyar olan kitablardan bəhs edən Respublika uşaq kitabxanaları üçün hazırlanmış yaddaş / tərt. ed. N. Məcidova; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2015.- 34s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2015**

# Giriş:

Əziz uşaqlar, kitab bizim hər birimizin uşaqlıqdan ən yaxın dostumuzdur. Çünki biz kitablarla biliyimizi artırır, həyatda axtardığımız suallara kitablarda cavab tapırıq. Oxuduğumuz kitabları mütaliə etməklə eyni hadisələr haqqında hər birimiz fərqli fikirlər yürüdürük. Kitablardan çıxardığımız doğru qərarlarla biz həyatda xöşbəxtlik yolunun açarlarını qazanırıq. Bəs siz bilmək istərdinizmi sizin müəllimləriniz, valideyinləriniz hansı kitablarla böyümüşlər? Hazırladığımız bu yaddaşda sizləri bu il yubileyi qeyd edilən həmin kitablarla tanış edəcəyik. Bəlkə də bu kitabları siz də tanıyırsınız? Axı bu kitabların çoxu uşaqlar tərəfindən sevildiyi üçün dəfələrlə təkrar nəşr edilmişdir. Yaddaş kitabxana, lisey, orta məktəb və b. istifadəsi üşün nəzərdə tutulub.




**Abbaszadə H.**
**İlqar / red. O. Sarıvəlli ; rəs. D. Kazımov. - Bakı : Uşaqgəncnəşr, 1955. - 12 s. : şək. ; 27 sm. - 20000 экз. - həd.**

Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən hesab olunan Hüseyn Abbaszadənin bu kitabı kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulub.Kitabda verilmiş şeirdə İlqargilin bağa köçməsi, babasının yanında meyvə bağlarında ağac əkməsindən bəhs olunur.




**Abbaszadə H. Sən nə yaxşı nənəsən. - B.: Uşaqgəncnəşr, 1960.**

Azərbaycan oxucularına “Hüseyn Abbaszadə” imzası ilə tanınan yazıçının “Sən  nə yaxşı nənəsən” kitabında toplanan şeirlərin və kiçik hekayələrin əksəriyyəti müharibə mövzusunda yazılıb. Kitab 1960-cı ildə Uşaqgəncnəşr tərəfindən ilk dəfə nəşr edilib.




**Əlibəyli X. Ulduzlu papaq. - Bakı: Uşaqgəncnəşr, 1960. - 20 səh.**

Bu kitabdakı “Ulduzlu papaq” hekayəsində atası müharibədən qayıtmayan, amma oğluna ulduzlu bir papaq göndərmiş balaca Muraddan danışılır. Atasını həmişə görmək arzusu ilə yaşayan Murad isə atası göndərdiyi papağı əziz bir xatirə kimi saxlayır, daim atasını yad edir.




**Əlibəyli X. Balaca həkim. - B.: Uşaqgəncnəşr, 1955.**

Müəllifin "Balaca həkim" adlı kitabı 1955-ci ildə Uşaqgəncnəşr tərəfindən 30.000 nüsxə tirajla çap olunmuşdur. Kitab kiril əlifbası ilə, şəkilli nəşr edilmişdir.



**Əlibəyli X. Yaz konserti. - B.: Uşaqgəncnəşr, 1960.**

Xanımana Əlibəylinin uşaqlar üçün yazdığı bu kitabına onun uşaq dünyasına məxsus yaşantılarını obrazlı formada əks etdirən pyesi daxil edilmişdir.




**Əliyev M. Qartal. - Bakı.: Uşaqgəncnəşr, 1960. - 50 səh.**

1935-ci ildə anadan olan Məstan Əliyevin ilk qələm təcrübələri, şeirləri,  kitabda yer almışdır.




**Gözəlov C. Küsən dişlər. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1945. - 16 s. - kiril əlifbası ilə. - 15000 nüs.**

Məktəb yaşına çatmamış uşaqlar üçün nəzərdə tutulan kitabda satirik hekayə və felyeton ustası Cahangir Gözəlovun uşaqlar üçün yazdığı "Küsən dişlər" hekayəsi verilmişdir. Hekayədə balacalara tənbəl olmamaq, həmişə dişlərə qulluq etməyin lazımlığı ön plana çəkilir.




**Hasilova X. Lalənin kitabı. - B.: Uşaqgəncnəşr, 1955.**

Maraqlı nəsr əsərlərinin müəllifi kimi tanınan yazıçının "Lalənin kitabı" 1955-ci ildə kiril əlifbası ilə Uşaqgəncnəşrdə çap edilmişdir. Çap edilməsindən 60 il ötən "Lalənin kitabı" əsəri oxucuya gözəl duyğular aşılayır.




**İbrahimov H. Zərifənin çiçəkləri. – B. - Uşaqgəncnəşr, red. R. Şıxəlieva -1960.-20s.**

Bu il həmçinin yazıçı Hüseyn İbrahimovun “Zərifənin çiçəkləri” adlı kitabının da yubiley ilidir.




**İlkin Q. Şah və qarışqa : Azərbaycan xalq nağılı / rəs. A. Hacıyev. - Bakı : Azərnəşr, 1965. - 15 s.**

Azyaşlı uşaqlar üçün Qılman İlkinin tərtibatı əsasında yığılmış bu kitabda verilmiş nağılda Süleyman şah və onun əhvalatından danışılır. Kitab 1995-ci ildə yenidən çap edilmişdir. 24 səhifədən ibarət bu nəşrə isə, İsmayıl Öməroğlunun "Ağıl və birlik" nağılı da daxil edilmişdir. Hər iki kitab illistürasiyalıdır.




**Şah və qarışqa / red. İ. Xəlilov ; rəs. N. Rəhimov ; tərt.ed. Q. İlkin. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1995. - 24 s. : şək. ; 21 sm. - (Azərbaycan xalq nağılı)**




**İsabəyli Q. Əkil - Bəkil. - Bakı: İşıq, 1990. - 170 səh.**

Q. İsabəylinin uşaqlar arasında ən çox sevilən “Əkil-Bəkil” adlı kitabı “İşıq” nəşriyyatı tərəfindən 1990-cı ildə kiril əlifbası ilə nəşr olunmuşdur. Müəllifin ən iri həcmli əsərlərindən biridir. Povestdə əsas qəhrəmanlardan olan Bəkil diribaş, tədbirli, ağıllı, yaxşı oxuyan, idmanı sevən, ayıq-sayıq bir oğlandır. Poemada şair Bəkili elə məhəbbətlə təsvir edir ki, istər-istəməz adamın yadına nağıllarımızdakı ağıllı Cırtdan, Keçəl, Idığ-Bıdığ və başqa qəhrəmanlar yada düşür.




**İsabəyli Q. Nənəm təkdi // red. Ə. OL. - Bakı: Cik-Cik, 1995. - 48 s. : şək. ; 21 sm. - 6000 nüs.**

Müəllifin bu kitabı kiril əlifbası ilə 1995-ci ildə "Cik - Cik" nəşriyyatı tərəfindən çap edilmişdir. Yazıçı Əjdər Ol kitaba "Şeirimizin unutduğu yerlər" adlı ön söz yazmışdır. Qırx səkkiz səhifədən ibarət olan bu şəkilli kitab 6000 nüsxə ilə ilk dəfə çap edilmişdir.




**Xəlil Z. Cırtdanla Azmanın yeni macəraları: Povestlər və hekayələr; son söz İ. Motyaşov; rəs . M. Quliyev. - Bakı.: Gənclik, 1985. - 355 səh.: şək. - (1cildli)**

“Cırtdanla Azmanın yeni sərgüzəştləri” adlı bu kitab ilk dəfə 1985-ci ildə Gənclik nəşriyyatı tərəfindən çap edilmişdir. Kitab 1989-cu ildə “Ən yaxşı uşaq kitabı” devizi altında keçirilən Respublika müsabiqəsində ilk yeri qazanmışdır. Bu il artıq bu kitab 30 ildirki bizlərlə bərabərdir. Uşaqlar tərəfindən çox sevildiyindən müəllif “Cırtdanın yeni sərgüzəştləri adlı” povestini də yazmışdır.




**Quluzadə Ə. Ömür-gün qabaqdadır. - B.: Yazıçı, 1980. - 83 s.**

1980-cı ildə Yazıçı nəşriyyatında işıq üzü görən bu kitabdakı əsərləri ilə müəllif uşaqlara haqq-ədalət, vətənpərvərlik, mərdlik, qorxmazlıq, cəsurluq, barədə düşüncələrini çatdırmışdır. Kitab 83 səhifədən ibarət olub 1980-cı ildə Yazıçı nəşriyyatı tərəfindən çap edilmişdir.




**Quluzadə Ə. Tumurcuqlar. - B.: Gənclik, 1985. - 28 s.**
Yaradıcılığa gənc yaşlarında başlayan şairin "Tumurcuqlar" adlı bu kitabında müxtəlif illərdə yazdığı şeir və hekayələri toplanmışdır.




**Müşfiq M. Qaya. - Bakı: Azərnəşr, 1935. - 29 səh.**
Zəngin ədəbi irsinə şeirdən tutmuş poemayadək "Çoban", "Mənim dostum", "Qaya", "Sındırılan saz", "Səhər", "Azadlıq dastanı" kimi lirik növün əksər janrları daxil olan şair bu əsərlərdə həyati lövhələrini, insanların mənəvi aləmini inandırıcı şəkildə açmışdır.



**Müşfiq M. Şəngül, Şüngül, Məngül. - Uşaqgəncnəşr, 1964.**
**Şəngül, Şüngül, Məngül / M. Müşfiq ; red. A. Hacıyev, rəs. G. Kərəmqızı. - Bakı : Gənclik, 1996. - 16 s. :rəng. şək. ; 29 sm. - 5000 экз. - ISBN 5-8020-1143-2**

Hamımızın sevə-sevə oxuduğu şair Mikayıl Müşfiqin "Şəngül, Şüngül, Məngül" mənzum nağılı, hələ də müxtəlif illərdə yenidən nəşr edilərək kiçikyaşlılarımızın dilində əzbərdir. Maraqlı illüstrasiya ilə işlənmiş bu kitab kitabxanamızda həm səsli şəkildə həm ucadan oxu şəklində uşaqların sevdiyi gözəl nümunələrimizdəndir.




**Rahim, Məmməd. Arzu qız ; rəs. Ə. Hacıyev ; red. M. H. Seyidzadə. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1940. - 28+1 s. : rəng.il. ; 22 sm. - kiril əlifbası ilə.**

Dəfələrlə nəşr edilmiş Məmməd Rahimin “Arzu qız ” poeması epik şeirimizn gözəl nümunəsidir. Orta və böyük yaşlı oxucular üçün nəzərdə tutulan müəllifin bu kitabında “Arzu qız” və “Qırx qız” əsərləri verilmişdir.Uşaqlar üçün nəzərdə tutulmuş bu əsərlər tarixi bir mövzuda yazılmışdır.




**Rahim M. Balaca bağbanlar. - Bakı.: Uşaqgəncnəşr, 1955. - 36 s**




**Bir cüt xurma ağacı ; red. İ. Tapdıqov ; rəs. D. Kazımov. Bakı : Azərbaycan Dövlət Nəşriyyatı, 1965. - 12 s. : şək.; 21 sm. - həd.**

Sevimli yazıçımız İlyas Tapdığın redaktoru, Davud Kazımovun rəssamı olduğu Nigar Rəfibəylinin məktəblilər üçün yazdığı “Bir cüt xurma ağacı” şeiri ilə adlandırdığı bu kitab 1965-ci ildən bu günə qədər rəflərimizi bəzəyir. 50 yaşlı bu kitab inanırıq ki, hələ neçə nəsillər yaşayacaq. Kitabda Nigar Rəfilbəylinin şeirləri toplanmışdır.




**Rzayeva H. Üç nəğmə. - B.: Gənclik, 1970. - 30 səh.**

Şair, publisist Həqiqət Rzayevanın 1970-ci ildə nəşr edilmiş kitabı şairin  ilk şeirlər kitabıdır.




**Rzaquluzadə M. Sirli saz. - Bakı.: Uşaqgəncnəşr, 1955. - 17 səh.**

1955- ci ildə nəşr edilmiş bu kitabda toplanmış şeirlər uşaq və gənclər üçün nəzərdə tutulmuşdur.




**Seyidzadə M. Nərgiz. - B.: Azərnəşr, 1935. - 44 səh.**

Lirik şeirlərində insanın quruculuq əzmini, vətənpərvərlik duyğularını, saf məhəbbətini tərənnüm edən Mirmehdi Seyidzadənin klassik poeziya ənənələrini yeni məzmunla zənginləşdirən qəzəlləri də geniş şəkildə işıqlandırılmışdır.




**Təhmasib M. Çiçəkli dağ. - B.: Azərnəşr, 1965.**

Sevimli uşaq yazıçımız Məhəmmədhüseyin Təhmasibin kitabda verdiyi "Çiçəkli dağ" pyesinin motivləri əsasında "Bir qalanın sirri" adlı filmin ssenarisi çəkilmişdir.




**Şaiq A. Qiraət kitabı. - Bakı: Yeni türk əlifbası komitəsi nəşriyyatı, 1925. - 167 s.**

Abdulla Şaiqin müxtəlif illərdə hazırladığı Milli qiraət adlı dərsliklərdə Azərbaycan klassiklərinin həyat və yaradıcılığı haqqında məlumatlar və əsərlərindən parçalar verilib.




**Şaiq A. Nağıllar. - Bakı: Uşaqgəncnəşr, 1945. - 54 səh.**

Xalq ədəbiyyatını toplayıb araşdıran A. Şaiq bu örnəklər əsasında "Tıq-tıq xanım", Tülkü həccə gedir, "Yaxşı arxa" kimi mənzum nağıllar da yazıb. Dəfələrlə təkrar nəşr edilmiş bu kitabda toplanmış Abdulla Şaiqin kiçik nağılları milli nəsr örnəkləri, nümunələri kimi dəyərlidir.




**Şaiq A. Gözəl bahar. - Bakı : Uşaqgəncnəşr, 1940. - 32 səh.**

1910-cu ildə yazdığı “Gözəl bahar” pyesi ilə Abdulla Şaiq milli uşaq teatrının özülünü qoyub.

**Şaiq A. Uşaq gözlüyü. - Bakı : Orucov qardaşlarının elektrik mətbəəsi, 1910. - 54** s.

1910-cu ildə I Müəllimlər Qurultayından heç bir il keçməmiş neçə-neçə yeni dərsliklər yaranıb. “Əlifba”, “Uşaq çeşməyi”, “İkinci il”, “Gülzar” və s. bu kimi dərsliklərdə A. Şaiqin öz əsərləri və dünya ədəbiyyatından örnəklər çap olunub. On altı səhifəlik “Uşaq çeşməyi” kitabı kiçik yaşlı uşaqların bilik səviyyəsinə uyğun hazırlanıb. Bu dərsliklərdə Azərbaycan klassiklərinin həyat və yaradıcılığı haqqında məlumatlar və əsərlərindən parçalar verilib. “Uşaq çeşməyi”, kitabı
Ana dilinin və ədəbiyyatın tədrisində xüsusi yer tutur.




**Ziya H. Qısa təmsillər. - Bakı: Azərnəşr, 1965. - 55 səh.**

Kitabda toplanmış Hikmət Ziyanın qısa təmsillərinin əksəriyyəti öz ədəbi taleyi olan, həyat və insan haqqında yazılmış əsərlərdir.Onun təmsillərində əliəyrilər, yaltaqlar ifşa edilir.

**Yaddaşda 2015-ci ilin yubilyar kitabları təqdim edilmişdir.**

**Kompyuter yığımı**
**və dizayn: Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh., S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasında çap olunmuşdur.**
**Sifariş:**
**Çapa imzalanmışdır:**
**Tirajı:100**
**Pulsuz**